**TARİX VƏ SİYASİ ELMLƏR**

**UOT 32:070**

# TÜRKİYƏNİN DEMOKRATİKLƏŞMƏ PROSESİNDƏ MEDİANIN ROLU

**Pərvanə İBRAHİMOVA***

Məqalə redaksiyaya daxil olmuşdur: 12 iyul 2024; çapa qəbul edilmişdir: 29 iyul 2024; online-da çap edilmişdir: 17 sentyabr 2024.

Received: 12th of July, 2024; accepted: 29th of July, 2024; published online: 17th of September, 2024.

**Açar sözlər:** *Türkiyə, konstitusiya, media, demokratikləşmə, islahat, plüralizm, kontent*

## Giriş

Müasir cəmiyyətlərin siyasi strukturunun formalaşmasında və demokratikləşmə prosesində medianın rolu mühüm əhəmiyyət kəsb edir. Demokratikləşmə daha açıq və hesabatlı idarəetmə formalarına keçid prosesi kimi müəyyən edilir və media bu prosesdə mühüm rol oynayır. İctimaiyyəti məlumatlandırmaq və maarifləndirmək yolu ilə demokratikləşməyə töhfə verən media vətəndaşlara məlumat əldə etmək imkanı yaratmaqla onların əsaslandırılmış qərarlar qəbul etməsinə şərait yaradır. Həmçinin hökumət siyasəti, hüquqi tənzimləmələr, insan hüquqları və iqtisadi problemlər kimi mövzularda ictimaiyyəti məlumatlandırmaqla demokratik şüurun və anlayışın inkişafını dəstəkləyir. Bundan əlavə, media “dördüncü hakimiyyət” rolu ilə şəffaflığı və hesabatlılığı artırır, hökumətin və digər qurumların fəaliyyətini diqqətdə saxlayır, müxtəlif yanaşma və fikirlərin ifadə olunmasına imkan verməklə plüralizmi təşviq edir. Bu kontekstdə media demokratik cəmiyyətlərin əsasını təşkil edən müxtəlifliyin və iştirakçılığın təmin edilməsində mühüm vasitə kimi ön plana çıxır. Tədqiqatda Türkiyənin demokratikləşmə prosesi medianın rolu araşdırılmaqla tarixi ardıcıllıqla incələnmiş, ölkənin siyasi və sosial tarixinə təsirləri ətraflı şəkildə təhlil edilmişdir.

## 1. Türkiyədə mətbuat orqanlarının yaranması və demokratikləşmə prosesi

Türkiyə mətbuatının tarixi 1831-ci ildə “Takvim-i vekayi” qəzetinin ilk nömrəsinin nəşr olunması ilə başlamışdır. Ölkədə və xaricdə baş vermiş hadisələr haqqında xəbərlər yayımlayan qəzet proseslər haqqında ictimai rəy yaradacaq dərəcədə geniş fəaliyyət göstərməmişdir. İlk rəsmi qəzetdən sonra, 1840-cı ildə “Ceride-i havadis” nəşr edilmişdir. Qəzetlərin tipi və informasiya siyasətinin formalaşması dövrünün təsadüf etdiyi XIX əsr Türkiyəsində (Osmanlı) dövrün mənzərəsinin dəyişməsi “Yeni Osmanlılar”ın adı ilə bağlı olmuşdur. 1866-cı ildə müxalifyönlü qəzet kimi nəşr olunmuş “Muhbir” qısa müddət ərzində bağlanmışdır. XIX əsrdə mətbuatın enişli-yoxuşlu dövrlərindən biri də, Sultan II Əbdülhəmidin (1876-1909) hakimiyyətinə təsadüf etmişdir. Araşdırıcı-jurnalist Nurlan Ağa həmin dövrü belə xarakterizə etmişdir: “Sultan II Əbdülhəmidin mətbuat üzərindəki

* *siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent, Bakı Dövlət Universiteti*
*e-mail:* pervanei@mail.ru
*ORCID NO*: 0000-0002-3611-0362
*DOİ:* https://doi.org/10.30546/25194011.2024.13.4.016

təsiri, I və II Məşrutiyyə dövrləri, "İttihad və tərəqqi" partiyasının ölkənin siyasi səhnəsində güclü yer tutması və digər olaylar Türkiyənin XIX əsrin sonları – XX əsrin əvvəllərindəki siyasi mənzərəsidir. XX əsr Türkiyə jurnalistikasında "İkdam", "Tanin", "Köylü" qəzetləri, satirik tipli "Karagöz", "Kalem", "Geveze" kimi mətbuat orqanları öz yazıları ilə dövrlə uyğunlaşmağa çalışmışlar (1, s. 23). Beləliklə, XIX əsrin sonlarından başlayaraq mətbuat cəmiyyətdə informasiya əldə etmək və fikir mübadiləsi aparmaq üçün mühüm platforma kimi meydana çıxmışdır. Bundan başqa, Osmanlıdan Cümhuriyyət dövrünə keçidlə medianın liberallaşması və şaxələndirilməsi demokratik proseslərin təməl daşlarından birinə çevrilmişdir. Demokratiya xalqın özünü idarə etməsi mənasını verən anlayış olaraq tarix boyu müxtəlif formalarda qiymətləndirilmişdir. Günümüzdə demokratiya yalnız idarəetmə forması deyil, bütövlükdə həyat tərzi və sosial dəyərlər kimi qəbul edilir. Bu baxımdan, qərbli intellektualların demokratiyanı "insanlığın taleyi" olaraq təsvir etmələri (13, s. 11) onun universal dəyər kimi qəbul edilməsinin göstəricisidir.

Türkiyənin demokratikləşmə prosesi 1923-cü ildə Türkiyə Cümhuriyyətinin qurulması ilə başlamış və Mustafa Kamal Atatürkün liderliyində həyata keçirilən inqilabi islahatlar, ölkənin siyasi və sosial strukturunda, KİV-in ümumi mənzərəsində əsaslı dəyişikliklər etmiş, dövri nəşrlərin sayının artması ilə ölkədəki hadisələr daha operativ işıqlandırılmış, plüralizm yaranmış, mətbuat dünya media sisteminin tərkib hissəsi olmağa doğru addımlamağa başlamışdır.

Atatürkün islahatları Türkiyənin modernləşmə prosesində köklü dəyişikliklərə səbəb olmuşdur. Belə ki, dünyəvilik prinsipinin qəbulu ilə din və dövlət işləri bir-birindən ayrılmış, dini təhsil müəssisələri bağlanmış və dünyəvi təhsil sistemi tətbiq olunmuşdur. 1924-cü ildən etibarən dövlətin dünyəvi quruluşu konstitusiya ilə təmin edilmişdir. Mülki Məcəllənin qəbulu ilə hüquq sistemində əsaslı dəyişikliklər edilmiş, kişi və qadın bərabərliyinə nail olunmuş, qadınlara sosial və iqtisadi hüquqlar verilmişdir. Bu dövrdə papaq və geyim inqilabı, təqvim və saat islahatı, soyad qanunu kimi bir çox yeniliklər də tətbiq olunmuşdur (3, s. 257-258). Təhsil sahəsində aparılan islahatlar dünyəvi və müasir dəyərlərə malik yeni nəsillər yetişdirmək məqsədi daşımışdır. 1924-cü ildə qəbul edilən Tevhid-i Tədrisat Qanunu ilə bütün təhsil müəssisələri Milli Təhsil Nazirliyinin nəzarətinə keçməklə təhsildə birlik əldə edilmişdir. Ərəb əlifbasından latın əlifbasını keçidlə savadlılıq səviyyəsinin yüksəldilməsi qarşıya məqsəd qoyulmuşdur. Universitet islahatları ilə ali təhsildə yeniliklər edilmiş, Qərbdən nümunə götürülərək elmi və akademik tədqiqatlar təşviq edilmişdir (10, s. 165).

Ümumilikdə, Cümhuriyyət dövrü mətbuatı ölkə səviyyəsindəki dəyişikliklərlə auditoriyanı məlumatlandırmış, hadisələri şərh etmiş və beləliklə, qəzetin informasiya siyasəti onun tipini müəyyən etməyə təsirsiz ötüşməmiş, nəticədə medianın tipoloji strukturu inkişaf etmiş və hadisələrin çatdırılması rəngarəngliyi yaranmışdır.

Atatürkün vəfatından sonra Cümhuriyyət Xalq Partiyasının (CHP) təkpartiyalı iqtidarı İsmət İnönünün liderliyi ilə davam etdirilmişdir. İslahatlar İnönü dövründə də davam etmiş və İkinci Dünya müharibəsinin çətinliklərinə baxmayaraq, iqtisadi və sosial sahələrdə modernləşmə səyləri davam etmişdir. Lakin bu dövrdə təkpartiyalı hakimiyyətə qarşı müxalifət hərəkatları inkişaf etməyə başlamış və 1946-cı ildə çoxpartiyalı siyasi həyata keçidlə birlikdə Türkiyənin demokratikləşmə prosesində yeni dövrün başlanğıcına keçid yaşanmışdır. 1946-cı ildə keçirilən ilk çoxpartiyalı ümumi seçkilərdə Demokrat Partiyası (DP) müxalifət partiyası kimi siyasi səhnəyə çıxmış və 1950-ci ildəki seçkilərdə böyük qələbə ilə iqtidara gəlmişdir (9, s. 90-91).

Demokrat Partiyasının hakimiyyətə gəlməsi ilə siyasi-ictimai sahədə ciddi dəyişikliklər baş vermişdir. Mətbuat azadlığı genişləndirilmiş, dini azadlıqlarla bağlı daha çevik siyasətlər qəbul edilmiş və kəndlərdən şəhərlərə köç sürətləndirilmişdir (12, s. 112). Lakin DP-nin populist siyasəti və bəzən müxalifətə qarşı sərt münasibəti siyasi gərginliyə

səbəb olmuşdur. Müxalifət və bəzi qruplar DP-nin getdikcə avtoritarlaşdığını və demokratiyaya zərər verdiyini tənqid etməyə başlamışdır. Beləliklə, 1960-cı il mayın 27-də Türkiyə Silahlı Qüvvələri hökumətə qarşı çevriliş etmiş və bu hərbi müdaxilə nəticəsində DP hökuməti sona çatmışdır (8, s. 13).

Çevrilişdən sonra hərbi hökumət ölkədə demokratik nizamı bərpa etmək üçün konstitusiya və siyasi islahatlara başlamışdır. 1961-ci ildə qəbul edilən yeni konstitusiya Türkiyənin demokratikləşmə prosesində mühüm addım hesab edilmişdir. 1961-ci il Konstitusiyası demokratik hüquqları genişləndirən, fərdi azadlıqları qoruyan və sosial dövlət yanaşmasını qəbul edən bir quruluşa malik olmuşdur. Konstitusiya hakimiyyətlərin bölünməsi prinsipini gücləndirmiş, qanunvericilik, icra və məhkəmə hakimiyyətlərinin müstəqilliyinə təminat vermişdir. Bu yeni konstitusiya quruluşu dövlətin demokratik və qanunun aliliyi prinsiplərinə uyğun fəaliyyət göstərməsinə yönəlmişdir.

1961-ci il Konstitusiyasının gətirdiyi yeniliklərdən biri də Konstitusiya Məhkəməsinin yaradılması olmuşdur. Konstitusiya Məhkəməsi qanunların və hökumətin konstitusiyaya uyğunluğuna nəzarət edən, fərdi hüquq və azadlıqları qoruyan mühüm məhkəmə orqanı kimi fəaliyyət göstərmişdir. Bundan əlavə, konstitusiya sosial dövlət konsepsiyasını qəbul etmiş və dövlətin öz vətəndaşlarının sosial və iqtisadi hüquqlarını təmin etməsini nəzərdə tutmuşdur. Təhsil, səhiyyə, sosial təminat kimi sahələrdə dövlətin öhdəlikləri artırılmış, vətəndaşların rifahının yüksəldilməsinə yönəlmiş siyasi qərarlar qəbul edilmişdir (18). Konstitusiya, həmçinin demokratik iştirakın artırılması və siyasi sabitliyin təmin edilməsi məqsədilə seçki sisteminə və siyasi partiyalar haqqında qanuna dəyişikliklər etmişdir. Təmsilçilikdə, ədalət və idarəetmədə sabitlik prinsiplərini tarazlaşdıran seçki sistemi qəbul edilmişdir. Siyasi partiyaların fəaliyyəti sərbəstləşdirilmiş və onların demokratik şəraitdə fəaliyyət göstərməsinə şərait yaradılmışdır. Bu tənzimləmələr siyasi müxtəlifliyə və polifoniyaya yol açmaqla Türkiyənin demokratik inkişafına töhfə vermişdir. 1970-ci illərdə Türkiyədə yaşanan siyasi qeyri-sabitlik və iqtisadi çətinliklər nəticəsində hökumətlər tez-tez dəyişmiş və koalisiya hökumətləri arasında anlaşılmazlıqlar yaşanmışdır (11, s. 387). İqtisadi böhran, yüksək inflyasiya və işsizliyin artması cəmiyyətdə böyük iğtişaşlara səbəb olmuş, sol və sağ siyasi qruplar arasında şiddətli qarşıdurmalar baş vermişdir. Küçə toqquşmaları, siyasi sui-qəsdlər və terror aktları ölkəni xaotik ab-havaya qərq etmiş, hətta 1978-ci ildə elan edilmiş hərbi vəziyyət zorakılığı dayandırmaq üçün kifayət etməmişdir.

1980-ci il sentyabrın 12-də Türkiyə Silahlı Qüvvələri ölkədə artan zorakılıq və siyasi xaosa son qoymaq üçün hərbi çevriliş həyata keçirmişdir. Bu, Türkiyənin siyasi tarixində üçüncü hərbi müdaxilə kimi qeydə alınmışdır. Çevrilişdən sonra hərbi idarə ölkənin idarəçiliyini öz üzərinə götürmüş, siyasi fəaliyyətləri qadağan etmiş, mülki idarəçiləri vəzifələrindən uzaqlaşdırmışdır. Türkiyə Böyük Millət Məclisi buraxılmış və hərbi hökumət yeni konstitusiya layihəsinin hazırlanması prosesinə başlamışdır (16, s. 74-75).

1982-ci il 7 noyabr tarixində referendumla qəbul edilmiş Konstitusiya 1961-ci il konstitusiyasından fərqli olaraq daha avtoritar quruluşa malik olmuşdur. Yeni konstitusiyaya icra hakimiyyətini gücləndirən və dövlət üzərində nəzarəti artıran maddələr daxil edilmişdir. Konstitusiya mülki və hərbi bürokratiyaya geniş səlahiyyətlər verdiyi halda, fərdi hüquq və azadlıqlarla bağlı daha məhdudlaşdırıcı müddəalar tətbiq etmişdir. 1982-ci il Konstitusiyasının gətirdiyi ən mühüm dəyişikliklərdən biri də Ali Təhsil Şurasının (YÖK) yaradılması olmuşdur. Şura universitetlərin idarə olunmasında mərkəzi orqan olaraq yer almış və akademik muxtariyyət xeyli dərəcədə məhdulaşdırılmışdır. Bundan əlavə, siyasi partiya və birliklərin fəaliyyətinə ciddi nəzarət edilmiş, siyasi ifadə azadlığı məhdudlaşdırılmışdır. Beləliklə, Konstitusiya demokratik proseslərə və siyasi iştiraka ciddi maneələr yaratmışdır (20).

1990-cı illər də Türkiyə üçün siyasi qeyri-müəyyənlik və koalisiya hökumətləri ilə

yadda qalan bir dövr olmuşdur. Daim dəyişən hökumət və koalisiya siyasi sabitliyə nail olmağı çətinləşdirmişdir. Bu dövrdə iqtisadi böhranlar, yüksək inflyasiya kimi problemlər ölkənin sosial və iqtisadi strukturuna mənfi təsir göstərmişdir. Siyasi qeyri-müəyyənliklərlə yanaşı, PKK məsələsi Türkiyənin ən mühüm daxili təhlükəsizlik məsələləri kimi ön plana çıxmışdır. PKK Cənub-Şərqi Anadolu bölgəsində şiddətli qarşıdurmalara səbəb olarkən və baş verənlər bölgədəki mülki əhalinin həyatına mənfi təsir göstərmişdir. Bununla bərabər, 1990-cı illərin ortalarında Türkiyənin Avropa İttifaqına (Aİ) üzvlük prosesi demokratik islahatların sürətləndirilməsi üçün mühüm təkan olmuşdur. 1995-ci ildə Gömrük İttifaqı sazişinin imzalanması və 1999-cu ildə Helsinki Sammitində Türkiyənin Aİ üzvlüyünə namizədliyinin qəbul edilməsi ölkənin siyasi və hüquqi sistemində hərtərəfli islahatların aparılmasına təkan vermişdir (18, s. 11-12). Avropa İttifaqına üzvlük prosesi çərçivəsində insan hüquqları, ifadə azadlığı, məhkəmə sisteminin müstəqilliyi və vətəndaş cəmiyyətinin gücləndirilməsi kimi sahələrdə mühüm addımlar atılmışdır.

2002-ci ildə keçirilən ümumi seçkilərdə Ədalət və İnkişaf Partiyası (AK Parti) böyük qələbə qazanmış və Rəcəb Tayyib Ərdoğan baş nazir vəzifəsinə keçmişdir. AK Partiyanın hakimiyyətə gəlməsi Türkiyənin siyasi və iqtisadi tarixində mühüm dönüş nöqtəsinin başlanğıcı olmuşdur. Bu dövrdə AK Partiya hökuməti iqtisadi sabitlik və artım yönümlü siyasət yürüdərək ölkənin iqtisadi göstəricilərini əhəmiyyətli dərəcədə yaxşılaşdırmışdır. İnflyasiya səviyyəsi aşağı düşmüş, xarici investisiyalar artmış və böyük infrastruktur layihələri həyata keçirilmişdir (5, s. 74). AK Partiya iqtidarının ilk illərində Türkiyənin Avropa İttifaqında üzvlük prosesi böyük sürət qazanmış və hökumət təşkilata üzvlük yolunda mühüm islahatlar həyata keçirmişdir. İnsan hüquqları, məhkəmə müstəqilliyi və demokratikləşmə sahəsində edilən tənzimləmələr Türkiyənin Aİ ilə uyğunlaşma prosesinə töhfə vermişdir. Türkiyə 2016-cı il iyulun 15-də tarixinin ən kritik hadisələrindən biri olan uğursuz çevriliş cəhdi ilə üzləşmişdir. Türkiyə Silahlı Qüvvələrinin tərkibində olan bir qrup zabitin təşəbbüsü ilə gerçəkləştirilən çevriliş cəhdi xalqın küçələrə çıxaraq müqavimət göstərməsi, polisin və sadiq hərbi birləşmələrin müdaxiləsi ilə yatırılmışdır. Çevriliş cəhdindən dərhal sonra bütün Türkiyədə fövqəladə vəziyyət elan edilmiş, hökumət genişmiqyaslı əməliyyatlara başlamış və on minlərlə insan çevriliş cəhdi ilə əlaqədə olduqları iddiası ilə həbs edilmişdir (21, s. 50-51). Həmçinin bir çox media qurumları bağlanılmış, bəzi qeyri-hökumət təşkilatlarının fəaliyyəti qadağan edilmişdir. Bundan başqa, 2017-ci ildə keçirilən konstitusiya referendumu Türkiyənin inzibati sistemində köklü dəyişikliyə səbəb olmuşdur. Referendum nəticəsində qəbul edilən konstitusiya dəyişiklikləri ilə parlament sistemindən prezident üsul-idarəsinə keçid həyata keçirilmişdir. Yeni sistem Türkiyədə hakimiyyət bölgüsü prinsipinin zəiflədiyi və icra hakimiyyətinin digər dövlət orqanları üzərində təsirinin artması ilə bağlı tənqidlərə səbəb olmuşdur (14, s. 120). Müxalifət partiyaları və müxtəlif vətəndaş cəmiyyəti təşkilatları bu dəyişikliklərin demokratik normaları sarsıtdığını iddia etmişdir.

Göründüyü kimi, Türkiyənin demokratikləşmə prosesi tarixən bir çox çətinliklərdən və transformasiyalardan keçmişdir. Hər bir dövr müxtəlif dinamika və dəyişikliklərlə formalaşmış, demokratikləşmə istiqamətində mühüm addımlar atılmışdır. Bu gün demokratiyaya sadiqlik və demokratik təsisatların gücləndirilməsi istiqamətində atılan addımlar Türkiyənin daha demokratik və azad cəmiyyət olmaq məqsədinə çatmasına şərait yaratmaqdadır. Bu proses vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi, qanunun aliliyinin təmin edilməsi və plüralist demokratiyanın funksionallığının artırılması baxımından mühüm əhəmiyyətə malikdir.

## 2. Müasir Türkiyə mediası: demokratikləşmə prosesindəki rolu

Türkiyə mediasının demokratikləşmə prosesindəki rolu ölkənin siyasi və sosial tarixində mühüm yer tutmuşdur. Türkiyədə media həm demokratikləşmə proseslərini

formalaşdıran, həm də bu proseslərdən təsirlənən resurs kimi ön plana çıxmış, Cümhuriyyətin ilk illərindən dövlətin modernləşmə və dünyəviləşmə səylərini dəstəkləyən mühüm bir vasitə olaraq istifadə olunmuşdur. Mustafa Kamal Atatürkün rəhbərliyi ilə həyata keçirilən inqilablar, islahatlar ictimaiyyətə çatdırılmış və medianın dəstəyi ilə qəbul etdirilməyə çalışılmışdır. Bu dövrdə əksər media orqanları dövlətin rəsmi baxışlarını və siyasətini əks etdirərək, ictimaiyyəti müasirləşmə prosesinə hazırlamaq məqsədi güdmüşdür (4, s. 78-93). Bu səbəbdən medianın dövlətin nəzarətində və yönləndirməsində olduğu bir struktur yaranmışdır. Dövlətin modernləşmə layihələrinin dəstəklənməsi və bu istiqamətdə ictimai rəyin formalaşdırılması medianın əsas funksiyalarından birinə çevrilmişdir.

1946-cı ildə çoxpartiyalı siyasi sistemə keçidlə media sahəsində də mühüm dəyişikliklər baş vermişdir. Demokrat Partiyasının (DP) hakimiyyətə gəlməsi ilə birlikdə mediaya təzyiqlər azalmış və mətbuat azadlığı baxımından daha liberal mühit yaranmışdır. Bu dövrdə həmçinin müxtəlif siyasi baxışları təmsil edən mətbuat orqanları yaranmağa başlamışdır. Bu da media sahəsinin şaxələnməsinə və müxtəlif ideologiyalı nəşrlərin yayım həyatına başlamasına səbəb olmuşdur. Çoxpartiyalılıq dövrünün başlaması ilə media həm də siyasi partiyalar üçün təbliğat vasitəsi kimi əhəmiyyət qazanmışdır. Müxtəlif siyasi baxışların təmsil olunan qəzetlər, jurnallar və radio verilişləri demokratik cəmiyyətin tələb etdiyi plüralizmə töhfə vermişdir (6, s. 261-265). Mətbuat azadlığının artması medianın daha müstəqil və tənqidi fəaliyyət göstərməsinə şərait yaratmışdır. Fərqli fikirlərin ifadə olunmasına imkan verilməsi cəmiyyətin müxtəlif təbəqələrinin səsini eşitdirmək baxımından mühüm inkişafa təkan vermişdir.

1960-1970-ci illərdə isə Türkiyədə siyasi böhranlar və çevrilişlər dövründə medianın rolu daha mürəkkəb və kritik xarakter almışdır. Çevrilişdən dərhal sonra media orqanları hərbi xunta tərəfindən nəzarətə götürülərək çevrilişi qanuniləşdirmək üçün təbliğat vasitəsi kimi istifadə edilmişdir. Lakin bu dövrdə bəzi media orqanları hərbi müdaxilələrə tənqidi mövqe sərgiləyərək sosial müxalifətin səsini eşitdirə bilmişdir (17, s. 738). Bu dövrdə media həm sağ, həm də sol qrupların təbliğat vasitəsinə çevrilmişdir. Bu illərdə mediaya təzyiqlər güclənmiş, xüsusən də 1971-ci il 12 mart memorandumundan sonra mətbuat azadlığı ciddi şəkildə məhdudlaşdırılmışdır. Beləliklə, bu dövrdə media həm avtoritar rejimlərin təzyiqi altında, həm də ictimai müqavimətin səsi kimi ikitərəfli mübarizə meydanına çevrilmişdir.

1980-ci il 12 sentyabr hərbi çevrilişindən sonra mediaya daha əhatəli və sistemli nəzarət və təzyiq prosesi başlamışdır. Çevrilişdən sonra hərbi hökumət media orqanlarını ciddi nəzarət altına almışdır. Qəzetlər bağlanmış, televiziya və radio verilişləri senzuraya məruz qalmış, bir çox jurnalist həbs edilmiş və ya işdən çıxarılmışdır. Kütləvi informasiya vasitələri hərbi xuntanın müəyyən etdiyi çərçivədə yayımlanmağa məcbur olmuşdur. 1982-ci il Konstitusiyası ilə mətbuat azadlığına məhdudiyyətlər və senzura praktikaları institusionallaşmışdır. Bu konstitusiya media qurumlarının dövlət nəzarəti altında fəaliyyət göstərməsini və hərbi hökumətin siyasətini dəstəkləməsini təmin etmişdir. KİV üzərindəki bu dövlət nəzarəti demokratik dəyərlərin və insan haqlarının qorunması səylərini zəiflətmiş və medianın müstəqilliyinə və qərəzsizliyinə ciddi zərbə vurmuşdur.

Mətbuat azadlığının məhdudlaşdırılması sosial və siyasi müxtəlifliyin mediada kifayət qədər təmsil olunmamasına səbəb olmuşdur. Bu vəziyyət ictimaiyyətin informasiyaya çıxışına və demokratik iştirakına mənfi təsir göstərmiş, əlavə olaraq 1980-ci illərdən etibarən bütün dünyada təsirli olan neoliberal siyasətlər Türkiyədə də media sektorunda köklü dəyişikliklərə səbəb olmuşdur. Neoliberalizmin gətirdiyi azad bazar iqtisadiyyatı media sektorunun deregulyasiya və özəlləşdirmə proseslərinə məruz qalmasını şərtləndirmişdir. Bu prosesdə media şirkətləri mənfəət yönümlü strukturlara çevrilməyə təşviq

edilmişdir. Dövlətin media üzərində nəzarətinin azalması və bazar dinamikasının gündəmə gəlməsi media sektorunda böyük transformasiyaya səbəb olmuşdur. Neoliberal siyasətin təsiri altında media mülkiyyəti və məzmun istehsalı böyük media maqnatlarının və çoxmillətli şirkətlərin nəzarəti altına keçmişdir (15, s. 26).

Media şirkətlərinin mənfəət yönümlü təşkilatlara çevrilməsi medianın sosial məsuliyyətlərindən uzaqlaşmasına səbəb olmuşdur. Mənfəət əldə etmək məqsədi media məzmununun kommersiya maraqlarına uyğun formalaşdırılmasına gətirib çıxarmışdır. Bu vəziyyət media qurumlarının xəbər və məlumatların təqdimatında qərəzsizlik və obyektivlikdən uzaqlaşaraq daha çox istehlakçı tələblərinə və reklam gəlirlərinə diqqət yetirməsinə səbəb olmuşdur. Medianın bu kommersiyalaşması prosesi ictimai maraqlara məhəl qoymayan yayım siyasətinin qəbul edilməsinin və beləliklə də, media məzmununun sosial və siyasi müxtəlifliyi əks etdirmək qabiliyyətinin zəifləməsinin əsas faktorlarından olmuşdur.

Lakin 1990-cı illərdə Türkiyənin Avropa İttifaqına üzvlük prosesinin başlaması ilə mediada islahatların aparılması və mətbuat azadlığının artırılması istiqamətində mühüm addımlar atılmışdır. 1990-2000-ci illərdə Türkiyədə özəl televiziya kanallarının və internetin yayılması ilə media sahəsi xeyli genişlənmişdir. Özəl televiziya kanallarının yaranması daha geniş və müxtəlif informasiya axınına şərait yaratmışdır. Özəl kanallar əyləncə proqramlarından xəbərlərə, sənədli filmlərdən müzakirə proqramlarına qədər geniş məzmun təklif edərək tamaşaçılara fərqli perspektivlər və məlumatlar təqdim etmək imkanı vermişdir (22, s. 216-217). Son dövrlər Türkiyədə 2.000 mindən çox qəzet və jurnalın qeydiyyatdan keçməsi, ölkədə çoxsaylı televiziya kanalının mövcud olması, 1.500-dən çox radiostansiyanın fəaliyyəti, media holdinqlər sırasında “Doğan”, “Albayrak”, “Çukurova”, “İhlas”, “Çiner” və digər qurumların fəaliyyəti Türkiyə mediasında rəngarənglik yaratmışdır. “Star”, “Sabah”, “Türkiye” (“İhlas” media holdinqi), “Yeni Şafak” (“Albayrak” media holdinqi) kimi iqtidaryönlü, “Cumhuriyet”, “Aydınlık”, “Yeni Çağ”, “Sözcü” kimi müxalifyönlü, o cümlədən “Radikal” qəzeti də daxil neytral informasiya siyasəti aparan resursların çoxluğu fərqli kontent istehsalını şərtləndirmişdir. Paralel olaraq internetin yayılması informasiyaya çatımlılığı asanlaşdırmış, vətəndaşların xəbər və məlumatlara çıxış üsulunu dəyişdirmişdir. Sosial media platformaları, bloqlar və xəbər saytları ənənəvi mediaya yeni alternativ xəbər mənbələri təklif etmişdir. Bu dövrdə media, həmçinin siyasi debatlar və ictimai işlərdə təsirli vasitəyə çevrilmişdir. Siyasi partiyalar və liderlər media subyektlərindən təbliğat və ictimai rəyin formalaşdırılması vasitəsi kimi intensiv şəkildə istifadə etməyə başlamışdır. Televiziya tok-şouları və xəbər buraxılışları siyasətçilərə öz mesajlarını geniş auditoriyaya çatdırmağa imkan vermişdir.

Türkiyə mediasının demokratikləşmə prosesində müstəsna rolu var. Bununla belə, media mülkiyyətinin böyük kapital qruplarının əlində cəmləşməsi, kommersiya maraqlarından çıxış etməsi informasiya mühitinin müxtəlifliyinə, məzmunun qərəzsizliyinə, ictimaiyyətin dəqiq və obyektiv məlumat əldə etməsinə təsirsiz ötüşmür. Buna baxmayaraq, internet və sosial media alternativ informasiya mənbələrinin və müstəqil jurnalistikanın inkişafına imkan verir. Rəqəmsal platformalar senzuraya müqavimət göstərə bilən və müxtəlif fikirlərin ifadə olunmasına imkan verən mühitlər təmin edir. Müstəqil jurnalistlər və rəqəmsal media qurumları ənənəvi medianın çatışmazlıqlarını aradan qaldırmağa çalışaraq cəmiyyətin geniş təbəqələrini əhatə edə bilir. Bu platformalar ictimaiyyətin məlumat əldə etmək hüququnu və demokratik iştirakını dəstəkləməklə Türkiyənin demokratikləşmə prosesində mühüm rol oynayır.

Ümumiyyətlə, media və demokratiya arasındakı əlaqə müasir cəmiyyətlərin fundamental dinamikalarından birini təşkil edir. Demokratiya əsas etibarilə məlumat əldə etmək və fikir azadlığına əsaslanır ki, bu kontekstdə media demokratik cəmiyyətlərin

əvəzsiz elementi rolunda çıxış edir, şəffaflığı və hesabatlılığı təmin edən mühüm bir funksiya yerinə yetirir, xalqın doğru və qərəzsiz məlumata çıxışını təmin edir. Bundan başqa, medianın mədəni müxtəlifliyi əks etdirməsi, fərqli baxış bucaqlarına yer verməsi demokratik cəmiyyətdə hərtərəfli və plüralist yanaşmanı təmin edir. Bu baxımdan, medianın ictimai inteqrasiya və mədəni zənginliyi dəstəkləmə rolu, demokrasiyanın əsas prinsiplərindən biri olan bərabərlik və ədalətin təmin olunmasına töhfə verir (23, s. 345).

Mətbuat azadlığı demokratik cəmiyyətlərin əsas sütunlarından birini təşkil edir və medianın bu azadlığı qoruması, demokratiyanın sağlam işləməsi baxımından mühüm əhəmiyyətə malikdir (2, s. 266).

Müasir Türkiyə mediası siyasi proseslərdə yaxından iştirak edir, inkişaf etmiş şərh, rəy janrları ilə hadisələri təhlil edir, günün dalğasını tutur, beləliklə fikir və arqument rəngarəngliyi yaradaraq dünya informasiya siyasətində öz mövqelərini nümayiş etdirə bilir.

**Nəticə**

Demokratiyanın idarəetmə forması ilə yanaşı, həyat tərzi və sosial dəyərlər məcmusu kimi xarakterizə edilməsi, bu anlayışın universal dəyər olaraq qəbul edilməsinə zəmin yaratmışdır. Türkiyədə demokratikləşmə prosesi 1923-cü ildə Türkiyə Cümhuriyyətinin qurulması ilə başlayaraq, Mustafa Kamal Atatürkün liderliyində həyata keçirilən inqilabi islahatlarla davam etmiş və ölkənin modernləşmə prosesində köklü dəyişikliklərə səbəb olmuşdur. Türkiyə tarixində hər dövr, müxtəlif dinamika və dəyişikliklərlə formalaşmış, demokratikləşmə istiqamətində mühüm addımlar atılmışdır. Demokratiya və medianın bu dinamikaları, Türkiyənin daha demokratik və azad cəmiyyət olma məqsədinə çatmasına şərait yaratmışdır. Bu proses, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi, qanunun aliliyinin təmin edilməsi və plüralist demokratiyanın funksionallığının artırılması baxımından kritik əhəmiyyətə malik olmuşdur.

Bütövlükdə xəbərləmə funksiyası ilə yaranmış, münasibətlərin, cəmiyyətin inkişafı ilə bağlı olaraq, öz formasını daha da inkişaf etdirmiş Türkiyə mediası rəngarəng kontent yaratmaqla ölkənin demokratikləşmə prsesində mühüm rol oynamışdır.

## ƏDƏBİYYAT

1. Ağa N. 15 İyun və media. Bakı: Gənclik, 2018, 108 s.
2. Akarcalı S. Basının görevleri ve basın özgürlüğü // Ankara Üniversitesi SBF Dergisi, 1989, №44-1, s. 265-287.
3. Ateş T. Türk Devrim Tarihi. İstanbul: Y.Güryay Matbaası, 1980, 456 s.
4. Atik A. 1923-1938 Yılları Arasında Atatürk Devrimlerinin Halka Benimsetilmesinde Yazılı ve İşitsel Basının İşlevi. İstanbul Üniversitesi: Sosyal Bilimler Enstitüsü, 2001, 293 s.
5. Ayşe K. Türkiye'de Sosyal Yardım ve Sosyal Politikalardaki Dönüşüm: Ak Parti Model // HAK-İŞ Uluslararası Emek ve Toplum Dergisi, 2014, №3-5, s.70-89.
6. Çakır H. ve Yavalar D. E. Demokrat Parti iktidarı ve basın. MANAS Sosyal Araştırmalar Dergisi, 2017, №6-3, s. 257-270.
7. Çelik H. Neoliberal Politikalar Sonucunda Medya Alanında Tekelleşme Eğilimleri ve Türkiye Örneğinde Son Yarım Yüzyıla Bakış // International Conference on Eurasian Economies, 2015, №1-1, s.736-739.
8. Dikici A. 27 Mayıs 1960 Askeri Darbesi ve Türk Polisi. Atatürk Araştırma Merkezi Dergisi, 2014, №30-89, s. 11-60.
9. Dursunoğlu İ., Şengün H. ve Kapusızoğlu M. Modernleşme bağlamında Türkiye`nin Sosyo-Politik Yapısı. Ankara: İmaj Yayınevi, 2019, 397 s.
10. Erdem A.R. Atatürk'ün Eğitim Liderliğinin Başarısı: Türk Eğitim Devrimi // BELGİ Dergisi, 2011, №2-2, s. 163-181.
11. Karataş M. Türkiye'nin 1970'li Yılları ve Milliyetçi Cephe Hükümetleri // ABAD Dergisi,

2022, №5-10, s. 387-422.
12. Keskin Y.Z. Demokrat Parti İktidarı ve Günümüze Yansımaları // Erzincan Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, 2012, №2-2, s. 48-60.
13. Lindbom T. Demokrasi Miti. İstanbul: İnsan Yayınları, 2017, 162 s.
14. Nihan Y. 2017 Anayasa Değişikliklerinin Yasama Yürütme İlişkilerine ve Yargı Bağımsızlığına Etkileri // Anayasa Hukuku Dergisi, 2017, №6-11, s. 117-136.
15. Olgun C.K. Neoliberal Politikalar Ekseninde Medyanın Dönüşümü // Sosyolojik Düşün Dergisi, 2007, №2-2, s. 22-28.
16. Özçelik P.K. 12 Eylül'ü anlamak // Ankara Üniversitesi SBF Dergisi, 2011, №66-1, s. 73-93.
17. Şahin D. 27 Mayıs 1960 Askeri Darbesi ve Basın (1960-1965) // History Studies, 2023, №15-4, s. 723-741.
18. T.C. Avrupa Birliği Bakanlığı // Türkiye-AB ilişkileri. (https://www.ab.gov.tr/ files/ rehber/ 03_rehber.pdf)
19. Türkiye Cumhuriyeti Anayasası (1961) (https://www.tbmm.gov.tr/files/anayasa/docs/ 1961/ 1961-ilkhali/1961-ilkhali.pdf)
20. Türkiye Cumhuriyeti Anayasası (1982) (https://www.resmigazete. gov.tr/ arsiv/ 17844. pdf).
21. Yavuzer H. 5. Yılında 15 Temmuz Darbesi. Milli Kültür Araştırmaları Dergisi, 2021, №5-2, s. 47-73.
22. Yılmaz Y. Siyasal Sistem ve Medya Kuramları Bağlamında Türkiye'de Gazeteciliğin Mesleki Kimlik Sorunu ve Bir Alan Araştırması. Marmara Üniversitesi: Sosyal Bilimler Enstitüsü, 2011, 341 s.
23. Ullah M.S. Free Media, Democracy and Democratisation: Experiences from Developing Countries // Journal of Global Communication, 2009, №2-2, pp. 343-351.

***Резюме***

***Парвана Ибрагимова***

***Роль СМИ в процессе демократизации Турции***

В статье рассматривается значение средств массовой информации в формировании политической структуры современного общества и процесса демократизации, их роль как «четвертой власти», их продвижение плюрализма путем предоставления возможности выражения различных подходов и мнений, а также их деятельность. в качестве важного инструмента обеспечения многообразия и участия, которое является основой демократического общества, в этом контексте колеблется. В статье классифицируется возникновение организаций печати в Турции и их влияние на процесс демократизации, в связи с этим рассматривается деятельность газет «Таквим-и векайи», «Сериде-и хавадис», политический ландшафт Турции конца XIX и начало 20 века, начало процесса демократизации с образованием Турецкой Республики в 1923 году и проведенные революционные реформы, коренные изменения, произошедшие в политической и социальной структуре страны, общая картина средств массовой информации, а также политические события, произошедшие в разные годы, периоды истории, подчеркивается, что процесс демократизации Турции исторически прошел через множество трудностей и преобразований. В то же время такие факторы, как современные турецкие СМИ, условия, которые они создают для широкого и разнообразного потока информации, возможность представить различные точки зрения и информацию, производство красочного и разнообразного контента, платформы социальных сетей, блоги и новостные сайты, предлагающие новые выделены альтернативные источники новостей традиционным СМИ, подчеркивается исключительная роль турецких СМИ в процессе демократизации. Ссылаясь на тот факт, что отношения между средствами массовой информации и демократией представляют собой одну из фундаментальных движущих сил современного общества, отмечается, что демократия фундаментально основана на доступе к информации и свободе мнений, в этом контексте средства массовой информации играют роль незаменимого элемента демократического общества, выполняют важную функцию, обеспечивающую прозрачность и подотчетность, обеспечивает людям доступ к правильной и объективной информации. В исследование включены такие вопросы, как турецкие СМИ созданные с функцией освещения в целом, получили дальнейшее развитие своей формы в

связи с развитием отношений и общества, играющие важную роль в процессе демократизации страны путем создания красочного контента, а также возможность влияния на мировую информационную политику.

**Ключевые слова**: *Турция, Конституция, СМИ, демократизация, реформа, плюрализм, содержание*

***Summary***

***Parvana Ibrahimova***

***The Role of the Medıa in Turkey's Democratızatıon Process***

The article touches on the importance of the media in the process of formation and democratization of the political structure of modern societies, its role as the "fourth estate", its promotion of pluralism by allowing the expression of different approaches and opinions, and its functioning as an important tool in ensuring diversity and participation, which are the basis of democratic societies, are considered in this context. The article classifies the emergence of press agencies in Turkey and its influence on the democratization process, in this regard, the activities of "Takvim-i vekayi" and "Ceride-i havadis" newspapers, The political landscape of Turkey at the end of the 19th - beginning of the 20th century, the beginning of the democratization process with the establishment of the Republic of Turkey in 1923 and the implemented revolutionary reforms, fundamental changes made in the political and social structure of the country, the general picture of the mass media, and political events that occurred in different periods of history, it is emphasized that the democratization process of Turkey has historically gone through many difficulties and transformations. At the same time, factors such as modern Turkish media, the conditions it creates for a wide and diverse flow of information, the opportunity to present different perspectives and information, colorful and diverse content production, social media platforms, blogs and news sites offering new alternative news sources to traditional media are highlighted, the exceptional role of Turkish media in the process of democratization is emphasized. Referring to the fact that the relationship between media and democracy constitutes one of the fundamental dynamics of modern societies, it is noted that democracy is fundamentally based on access to information and freedom of opinion, in which context the media plays the role of an indispensable element of democratic societies, performs an important function that ensures transparency and accountability, and provides the public with access to true and unbiased information. In the study, issues such as Turkish media which was created with the function of reporting as a whole, developed its form further in connection with the development of relations and society, playing an important role in the country's democratization process by creating colorful content, and the possibility of influencing world information policy are included.

**Key words**: *Turkey, Constitution, media, democratization, reform, pluralism, content*

Redaksiya heyətinin üzvü s.e.d., prof. Məmmədov Hikmət Baba oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.